taza-2_taza-2.qxd 13.04.2019 0:03 Страница 1



# Ermənistan rəhbərliyi Qarabağ kartı üzərində oyuna başlayıb

*Ermənistanın müdafiə naziri, David Tonayan son zamanlar ardıcıl olaraq tez-tez Azərbaycan ərazilərindən söz açır. O, "Gah müharibə başlayarsa, Azərbaycanın yeni torpaqlarının işğal ediləcəyini, gah da hərbi qarşıdurmanın ərazimizdə aparılacağını deyir.*

Səh.13


24 səhifə
Həftəlik qəzet

# UNİKAL

№22 (1961) 13 aprel 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev
www.unikal.org
unikal-1@mail.ru




# Kəmaləddin Heydərovun "Diqlas" məğlubiyyəti



# Elinanın intiharı ilə bağlı şok açıqlamalar

Səh.10

## Yanan ticarət mərkəzinin taleyi ilə bağlı yeni xəbər var

*Bu il martın 26-da səhər saatlarında başlayan güclü yanğın nəticəsində ciddi zərər görən "Diqlas" Ticarət Mərkəzi ilə bağlı redaksiyamıza maraqlı məlumat daxil olub. Məlumatda bildirilir ki, Bakının Nizami rayonu, Qara Qarayev prospektinin "8-ci kilometr" adlanan ərazisində yerləşən sözügedən ticarət mərkəzinin binası Gəncə Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Elmar Vəliyevin qardaşı Şahmar Vəliyevdir.*

Səh.6

## "Hər hansı siyasi bloka ehtiyac görmürük"



*Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə məhkəmə-hüquq sistemində ciddi islahatlara start verilib. Bu sərəncamdan sonra məhkəmə sistemində ciddi islahatların aparılacağı və müsbət nəticələrin olacağı ilə bağlı inam yaranıb. Milli Məclisin deputatı Fərəc Quliyev "Unikal" qəzetinə müsahibəsində öncə məhkəmə islahatlarından danışdı.*

Səh.4

## "Dövlət vətəndaşları yükdən azad etdi və yükü öz üzərinə götürdü"



*Prezident İlham Əliyevin son dövrlər həyata keçirdiyi sosial-iqtisadi, eləcə də hüquqi islahatlar cəmiyyət tərəfindən təqdir olunur. Milli Məclisin deputatı Tahir Mirkişili "Unikal" qəzetinə müsahibəsi zamanı həyata keçirilən islahatların mühüm nəticələrinin olacağını da vurğulayıb.*

Səh.7

## İcra başçısının müavini prokurorluqda dindirildi



*Xəbər verdiyimiz kimi, 162 nömrəli məktəbin şagirdi Elina Hacıyevanın intiharı ilə bağlı Bakı şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq tədbirləri həyata keçirilir.*

Səh.6